

Etibar Etibarlı

# DÜŞÜNDÜRƏN VƏ GÜLDÜRƏN...

*Əjdər OLUN "CANLI LƏTİFƏLƏR, ƏHVALATLAR, DEYİMLƏR" kitabı haqqında*

Çağdaş ədəbiyyatımızda istedadlı şair-dramaturq kimi tanınan Əjdər Olun yaradıcılığını bir oxucu kimi həmişə maraqla izləmişəm. O, həyata, insanlığa, dünyaya fəlsəfi baxışı, həmçinin orijinal poetik ifadə tərzi, obrazlı dili və ilk baxışda nəzəri cəlb etməyən ən sadə detallara poetik don geydirmək bacarığı ilə, daha doğrusu, "aysberq"in görünməyən tərəflərini görmək fəhmi ilə seçilir. Ən başlıcası, xalqın sadə danışıq dilinin poetik şirinliyi hopmuş şeirləri ürəklərə yol tapa bilir, çünki oxucu "dilin dolaşıq labirinti"nə düşmür, əksinə şair öz oxucusunu misraların "yaşıl işığın"da birbaşa təlqin etmək istədiyi ideyaya doğru aparır və onu, sözün həqiqi mənasında, düşünməyə vadar edir. Bu da poeziyanın əsas şərtidir.

Ə. Olun əksər şeirlərindəki incə yumor və lirik-satirik ovqat da oxucunu cəlb edən özünəməxsus məziyyətlərdəndir. Şairi yaxından tanıyanlar bilirlər ki, o hazırcavab, yumoru sevən, ilk andan müsahibində özünə qarşı rəğbət oyadan, son dərəcə səmimi bir insandır. O, hətta rəsmi tədbirlərdə çıxışına bir az yumor qatmaqdan da çəkinmir. Bu sadə və təbii nitq onu dinləyənlərə də sirayət edir, sanki auditoriyaya bir hərarət gətirir. Bəlkə də təbiətindəki bu incə yumor hissi onu daha bir xeyirxah işə -- "Canlı lətifələr, əhvalatlar, deyimlər"i toplamağa sövq edib. İlk baxışda sadə görünən bu məsələ , əslində, səbir, dözüm, yaddaş tələb edən çox əziyyətli bir işdir. Özü də bütün bunlara illərini sərf edəsən. Söhbət Ə. Olun "Canlı lətifələr, əhvalatlar, deyimlər" ( Qanun nəşriyyatı, 2015) kitabından gedir.

Bu kitabdakı qeyri -adi "insan mənzərələri" çərçivəsində tarix də var, əbədiyyətə qovuşmuş əbədiyaşar tarixi şəxsiyyətlər də, hələ bizimlə nəfəs-nəfəsə yaşayan müasirlərimiz də - tanınmışlar da, ən sadə insanlar da... Elə kitabın özəlliyi də bundadır.

Müəllifin topladığı lətifələr, əhvalatlar, deyimlər isə bu baxımdan tamamilə fərqlənir. Bu lətifələr bizə konkret tarixi hadisəni və həmin dövrü öz şəxsi xarakteri ilə səciyyələndirən insanları bir daha xatırladır. İncə, şirin və bəzən tənə dolu əhvalatlar, xoş ovqat yaradan lətifələr, atalar sözü qədər hikmətlə "yüklənmiş" və bədahətən dilə gətirilmiş deyimlər və s. adı çəkilən kitabın "xüsusi çəkisini" artıran xüsusiyyətlərdəndir. Hansı səhifəni oxuyursan oxu, adama doğma təsir bağışlayır, çünki bu hadisələr uzaq əsrlərin artıq nağıllaşan dünyasının əks-sədası deyil, bu dünən və bu gün baş verənlərdir, eyni zamanda haqqında söhbət gedən tanımadığımız o insanlar da tanıdıqlarımız qədər bizə tanışdırlar. Şairin özünün dediyi kimi: "... Yaşamış və yaşamaqda olan görkəmli şəxsiyyətlərin və sadə insanların dilindən çıxmış şux lətifələr, maraqlı əhvalatlar, sərrast deyimlər xəzinəsi olan bu kitabda sələflərimizin və müasirlərimizin ömürlərinin ən yaddaqalan, ən duyğulu, ən həssas, ən müdrik, ən hazırcavab, ən uzaqgörən və ən fəhmli məqamları üzə çıxır..."





Kitab dörd hissəyə bölünüb: siyasətçilər və dövlət adamları, yazıçılar və alimlər, sənətçilər, tanış-bilişlər. Hər bölümdə yer alan müxtəlif məzmunlu yazılar çox şirin, duzlu-məzəli bir dillə nəql edilir. Bəlkə də ona görə, sözün yaxşı mənasında, adam sanki "tilsim"ə düşür, ayrıla bilmir. Xüsusilə "Siyasətçilər və dövlət adamları" bölümündəki əhvalatları oxuyarkən, ötən əsrin əvvəllərindən günümüzəqədərki dövrün tarixi şəraitini təsəvvür etmək çətin deyil.

Yaşadığı dövrün təcəssümü olan Mircəfər Bağırovun obrazı sərt və ziddiyyətli xaraktera malik tarixi bir şəxsiyyət kimi yaddaşlarda qalıb. Onunla bağlı altı əhvalatı oxuyanda nədənsə "yaş içində gülüş" deyimini xatırlayırdım. İnzibati amirlik dövrünün "basıb-kəsdiyi" bir vaxtda Buzovnada neft quyularının qazılmasını istəməyən buzovnalıların şikayətinə baxan M.Bağırov onlara: "Moskvadan desələr ki, sənin başının içində neft var, başımda da quyu qazdıraram. Az-çox üzümüzə baxırlarsa, neftin xatirinədir", - deyir. Bu da yaşadığımız tarixin acı gerçəkliyi.

Kitabın " Yazıçılar və alimlər" bölümündə verilən və zaman və məkan məfhumlarını təcəssüm etdirən lətifələri və əhvalatları da oxuyub gülməmək, həm də düşünməmək, sadəcə, mümkün deyil. Məsələn, ilk əhvalat "Özünüz bilərsiniz": 1931-ci ildə "Molla Nəsrəddin" jurnalının 25 illik yubileyini hazırlayan hökumət komissiyasının üzvü kimi Cəfər Xəndan Mirzə Cəlilin yanına gəlir, yubileydə nələr nəzərdə tutulduğunu, kimlərin dəvət olunacağı barədə məlumat verir və hər dəfə böyük yazıçımız bircə kəlmə ilə münasibətini bildirir: "Özünüz bilərsiniz". Axırda C.Xəndan deyir ki, istəyirik siz də yubileydə fəal iştirak edəsiniz. Mirzə Cəlil qımışır:

- Hə, bax, bunu özüm bilərəm.

Daha bir əhvalat: Şair Əliağa Vahid ət növbəsində dayanıbmış. Birdən Təbriz radiosunun səsi eşidilir: "Əziz eşidənlər, İran müğənnisi Mustafa Payan ağayi-Vahidin qəzəllərini oxuyacaq."

Vahid deyir:

- Eh, kül o ağanın başına ki, ət növbəsində dayanıb.

M.S.Ordubadi, S.Rüstəm, Aşıq Bilal, İ.Səfərli, B.Vahabzadə, R.Rza, M.Cəlal, Ə.Vəliyev, H.Arif, S.Qədirzadə, M.Seyidzadə, Qabil, X.Rza Ulutürk, N.Abdullayev, M.Hüseynzadə, A.Zamanov, A.Mirzəcanzadə, X.Məmmədov, S.Səxavət, M.Oruc, V.Məmmədov, Yusif Səmədoğlu, F.Qoca, S.Rüstəmxanlı, A.İsgəndərov, A.Gəraybəyli, L.Məmmədbəyov, Abasağa, N.Kəsəmənli, Əlisəmid Kür, A.Səməd, S.Sarvan, M.İlqar, İ.Abbasov ... və s. dünyasını dəyişmiş, eləcə də hazırda aramızda olan bir çox yaşlı və cavan nəslə mənsub şairlər, yazıçılar, alimlər, aktyorlar və aşıqlar haqqında Ə.Oluyazıya aldığı lətifələrə, əhvalatlara, həmçinin qısa və mənalı deyimlərə heyran qalırsan. Müasirlərimizdən, xüsusilə müəllifin sənət dostlarından söz açılan bəzi lətifələrdə Ə. Olun özü də personajlardan biri kimi iştirak edir.

Məlum olduğu kimi, sənətçilər-xanəndələr, müğənnilər, musiqiçilər el şənliklərində, toy məclislərində, bir sözlə, xalq arasında olduqlarına görə daha tez-tez məzəli əhvalatların gah iştirakçısına, gah da şahidinə çevrilirlər. Bu baxımdan yarıciddi-yarızarafat deyilən sözlərdə ibrətamiz hikmətlər, real həyat həqiqətləri öz əksini tapıb. Bu əhvalatlarda da yaxın keçmişimizin, bu günümüzün nəfəsi duyulur. Ü.Hacıbəyli, S.Rüstəmov, S.Bəhlulzadə, M.Məmmədov, Xan Şuşinski, Ə.Əliyev, Niyazi, A.Məlikov, R.Behbudov, Ə.Ələkbərov, L. Abdullayev, Ə. Ağayev, E.Zeynalov, B.Mansurov, Ş.Ələkbərova, S.Qədimova, N.Zeynalova ... və s. bir çox başqaları haqqında toplanan lətifələr, məzəli əhvalatlar nələrdən xəbər vermir ki?!... Qismətimizə düşən hər iki quruluşda hazırcavab insanların bədahətən dedikləri hər söz, hər kəlmə, əslində, yaşadığımız, daha doğrusu, artıq ötüb keçən zaman kəsiyinin əks-sədasıdır. Məsələn, Xan Şuşinskini partiyaya keçirmək istəyirlər. Nə sual verirlər, cavabsız qalır. Axırda soruşurlar:

- Böyük Oktyabr inqilabı nə vaxt olub?

Xanəndə gileylənir:

- Oktyabr inqilabı elə hər il olur, özü də bizi aparıb havayı oxutdururlar.

Xandan biri soruşur ki, neçə şagirdin var. O, cavab verir ki, yüz. Soruşan deyir:

- Bəh! Bəh! Azərbaycan musiqisinin gələcəyi parlaqdır.

Xan gülür:

- Bu yüz nəfərdən cəmi ikisi məndən oxumağın sirrini mənimsəyir, qalan doxsan səkkizi qəlyan çəkməyi öyrənməklə məşğuldur.

Lətifələr və əhvalatlar sırasında kaman ustadı, böyük sənətkarımız Habil Əliyevin sərgüzəştləri daha çoxdur. Musiqiçilər arasında öz hazırcavablığı və baməzə danışığı ilə məşhur olan Habil müəllim həm də Ə.Olun yaxın dostu idi.

Müəllif yazır ki, yetmiş yaşında H.Əliyevi təbrik edib dedim:

- Habil müəllim, maşallah, cavan qalmısan.

O cavab verdi:

- Hə, sovet-alman müharibəsi vaxtı yeməyə bir şey tapılmırdı, çox vaxt ac olurdum. Ona görə də mədə-bağırsağım az işlənib, təzə qalıb.

Habil müəllim Razi Şükürovu xanəndə kimi toya aparır. Pul bölgüsündə payından damağı islanmayan xanəndə deyir:

- Habil müəllim, pulumu kəsməyin, mən Razi Şükürovam.

Ustad halını pozmadan deyir:

- Eybi yox, bu gündən olarsan Narazı Şükürov.

Habil Əliyev haqqında lətifələrin bir özəlliyi bir çox sənət adamlarını yada salması ilə yanaşı, həm də onların özünəməxsus xarakter və qəribəliklərini də üzə çıxarıb tarixə çevirməsidir.

"Tanış-bilişlər" bölməsində isə müəllif tanışlarından, dostlarından eşitdiklərini, həmçinin özünün bilavasitə şahidi və iştirakçısı olduğu məzəli əhvalatları qələmə almışdır. Qısaca onu deyə bilərəm ki, bu mənalı və məzəli əhvalatlardan bütün bölgələrimizin ətri gəlir.

Kitabın daha bir məziyyəti , o da dilimizə olan həssas münasibətdir. Ümumiyyətlə, Ə.Olun poeziya və nəsr dilinin təmizliyi, gözəlliyi ədəbi faktdır. Burada da şair öz əqidəsinə sadiq qalıb - lətifələrin və əhvalatların dili o qədər təbii, o qədər səlisdir ki, sanki kimsə cani-dildən, tərtəmiz, aydın bir dillə nə haqdasa danışır, yaxud iki nəfər üz-üzə dayanıb şirin-şirin söhbət edir və bu təhkiyənin və dialoqların təbiiliyi az qala oxucunu ovsunlayır. Mən də bu yolda qələm dostuma daha böyük uğurlar arzulayıram!